


# Zəhmətkeş və bacarıqlı tədqiqatçı



**Azərbaycanda ixtiologiyanın banisi A.N.Derjavin hesab olunursa, bu elmin sonrakı inkişafı onun tələbəsi və davamçısı, biologiya elmləri doktoru, professor, Azərbaycan SSR EA-nın müxbir üzvü Yusif Ələkbər oğlu Əbdürrəhmanovun adı ilə bağlıdır.**

Y.Ə.Əbdürrəhmanov 18 may 1912-ci ildə Şəkidə anadan olmuşdur. O, ibtidai təhsilini nümunə-zəhmət məktəbində almış və 1925-ci ildə məktəbi bitirdikdən sonra pedaqoji texnikuma daxil olmuşdur.

O, 1934-cü ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsinə daxil olmuş və 1939-cu ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. Universitetdə pedaqoji fəaliyyəti ilə yanaşı, 1940-cı ildə SSRİ EA Azərbaycan filialının Zoologiya İnstitutunda İxtiologiya ixtisası üzrə aspiranturaya daxil olmuşdur. Y.Ə.Əbdürrəhmanov tədqiqatlarını Böyük Vətən müharibəsinin başlaması ilə əlaqədar olaraq dayandırmış, dissertasiyasının müdafiəsi müharibə başa çatdıqdan sonra keçirilmişdir. Akademik A.N.Derjavinin rəhbərliyi altında elmi iş azərbaycanlı alim üçün yaxşı məktəb olmuş, onun simasında ixtiologiya elmi respublikada yüksəkixtisaslı, perspektivli mütəxəssis qazanmışdır. 1945-ci ildə biologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün "Xəzər sirbitinin biologiyası" mövzusunda dissertasiya işini müdafiə etmişdir. 1952-ci ildən ömrünün sonuna kimi İxtiologiya laboratoriyasının müdiri vəzifəsində işləmişdir.

1960-cı ildə Y.Ə.Əbdürrəhmanov biologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün "Azərbaycanın şirin su balıqları" mövzusunda dissertasiya işini müdafiə etmişdir. 1965-ci ildə ixtiologiya ixtisası üzrə professor elmi adı almış, 1968-ci ildən isə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilmişdir. Bütün elmi fəaliyyəti dövründə istər ölkə daxilində, istərsə xaricdə 100-dən çox elmi əsəri, o cümlədən 4 monoqrafiyası dərc olunmuşdur.

Azərbaycanın demək olar ki, bütün təsərrüfat əhəmiyyətli şirin su hövzələri Y.Ə.Əbdürrəhmanov tərəfindən tədqiq olunmuşdur. Onun tərəfindən respublikanın şirin su hövzələrindən ixtiofaunaya aid böyük faktiki material yığılmış, bütövlükdə su anbarlarında balıqartırma və səmərəli balıq təsərrüfatının mənimsənilməsi üzrə tədbirlər hazırlanmışdır. Y.Ə.Əbdürrəhmanov ekoloji tədqiqatlara daha çox diqqət göstərmişdir. O, Azərbaycanın dəniz və şirin sularında balıq ovu qaydaları layihəsini hazırlamışdır.

Onun elmi maraq dairəsi bəzi balıq növlərinin sistematik statusundan tutmuş Azərbaycanın şirin su və dəniz sularında yaşayan balıqların 95 növünün morfologiyası, yayılması, həyat tsikli və təsərrüfat əhəmiyyətinin öyrənilməsinə qədər geniş idi.

Y.Ə.Əbdürrəhmanovun rəhbərliyi ilə 3 elmlər doktoru və 15 elmlər namizədi hazırlanmışdır. Y.Ə.Əbdürrəhmanov müxtəlif illərdə "Şöhrət" ordeni və 4 medal ilə təltif edilmişdir.

Zəhmətkeş və bacarıqlı tədqiqatçı, qayğıkeş və təvazökar insan olan Y.Ə.Əbdürrəhmanovun keçdiyi şərəfli həyat yolu bütün dövrlərdə gənc ixtioloqlar üçün örnək və məktəbdir.

**Ələddin EYVAZOV,**
**AMEA Zoologiya İnstitutunun baş direktoru, v.i.e., a.e.ü.f.d., dosent,**

**İlham ƏLƏKBƏROV,**
**AMEA-nın müxbir üzvü.**